# Cənubi Azərbaycan soydaşlarımızın zəngin aşıq sənəti çətin şəraitdə uğurla yaşadılır...

**Güney Azərbaycan sazımızın, sözümüzün əsas ünvanlarından biridir. Hətta bir sıra ustadların rəvayətinə görə, aşıq sənətinin ilk ocaqlarından biri Güney Azərbaycandır. Bu rəvayəti araşdırsaq, onun gerçəklik üzərində kökləndiyini görə bilərik. Tədqiqatçılar da çox gözəl bilir ki, Urmiya gölünün ətrafında aparılan arxeoloji tədqiatlar zamanı əlində saz-qopuz təsvir edilmiş heykəl aşkarlanıb. Bu da onu göstərir ki, ozanlıq, aşıqlıq sənəti ta qədim dövrlərdən bir parçamız olan güneydə mövcud olub.**



Bəlkə elə onun nəticəsidir ki, Urmiyada çox güclü və zəngin aşıq mühiti formalaşıb. Təkcə Urmiyada deyil, Güney Azərbaycanın Qaradağ, Təbriz, Ərdəbil, Xoy, Marağa, Zəncan, bir sözlə, hər diyarında saz var, aşıq var. Güney Azərbaycanda aşıq sənəti əsrlərdir ki, mövcuddur, yaşayır, indən sonra da yaşadılacağına heç bir şübhəmiz yoxdur. Çünki saz, aşıq sənəti xalqımızın qanında, iliyindədir, genində, yaddaşındadır, bunu silmək isə mümkün deyil.

Məsələ bundadır, İran rejimi uzun illər saza qarşı mübarizə aparıb, soydaşlarımızı milli kökündən qoparmaq üçün hər vasitəyə əl atıb. Pəhləvilər dövründə hətta əlinə saz götürüb çalan adamları dar ağacına da çəkdirib. Güneyli ustadlardan eşitmişik ki, hətta şah rejimi 40 ildən artıq bir müddətdə aşıq sənətinə qadağa qoyub, sazlar köynəklərində qalıb, amma yenə də milli ruh qalib gəlib və imran dilli sazımız köynəyindən çıxıb yenə də məclislər yaraşığına çevrilib.

Güney Azərbaycan aşıq sənətindən danışarkən ustadlarımızı, adı bəlli aşıqlarımızı xatırlamalıyıq.

Tufarqanlı Abbası, Tikmədaşlı Xəstə Qasımı, Dirili Qurbanini, Miskin Abdalı, daha neçə-neçə ustadları yada salmalıyıq.

Aşıq Qurbani, yaxud Dirili Qurbaninin 1477-ci ildə indiki Cəbrayıl rayonun Diri kəndində anadan olduğu və 1550-ci ildə də öz doğma kəndində vəfat etdiyi yazılır. Bəs XV-XVI əsrlərdə yaşamış Dədə Qurbanini Arazın o tayına, Güney Azərbaycana bağlayan nə olub?

Təbii ki, burada rəqəmlər göstərsək də, amma onun nə zaman anadan olduğu və ya vəfat etdiyi dəqiq deyil. O, Şah İsmayıl Xətainin müasiri idi və fəaliyyətinə sarayda davam edirdi. Şah İsmayıl Xətainin dövründə aşıq sənəti özünün intibah dövrünü yaşayıb və böyük inkişaf yolu keçib, bu inkişafda Dirili Qurbaninin də xüsusi yeri olub. Xətainin özünün də sazda gözəl ifa etdiyi, ana dilimizdə gözəl şeirlər yazdığı, xüsusən də aşıq şeiri üslubunda yaradıcılıq örnəkləri ortaya qoyduğu məlumdur. Saz, aşıq sənəti Səfəvi sarayının zinəti olub desək, yanılmarıq.

Tədqiqatçıların yazdıqlarına görə, xalq dastanlarına görə Qurbani tanrının onun yuxusuna müdaxilə etməsindən sonra aşıq olub. O bu yuxuda böyük bir saray və bağda dayanan gözəl bir qız görür. O qızın adı Pərizat (Pəri) olur və Qurbaniyə baxır. Beləliklə, Qurbani həmin qıza aşiq olur, ancaq gördüklərinin sadəcə bir yuxudan ibarət olduğunu anlayır. Bu dastan "Qurbani və Pəri" adlı aşıq hekayəsinin əsasına çevrilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Aşıq Qurbani Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

"Qul", "Şikəstə", "Bikəs" təxəllüsləri ilə şeirlər yazan Abbas Tufarqanlının XVI əsrin sonları - XVII əsrin əvvəllərində Güney Azərbaycanda yaşayıb yaratdığı qeyd edilir. Onun adıyla bağlı olan "Abbas-Gülgəz" dastanı da Azərbaycan məhəbbət dastanları arasında xüsusi seçilir, aşıqların repertuarında xüsusi yer tutur.

Yaşa, sevdicəyim, yaşa
Yazılanlar gələr başa
Bir yandan özün bas daşa
Bir yandan el car eyləsin.

Abbas ağlar zarı-zarı
Getməz könlünün qübarı
İlqarından dönən yarı
Tanrı tez bazar eyləsin.

Bu, Tufarqanlı Abbasın şeir yaradıcılığından bir örnəkdir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Aşıq Abbas Tufarqanlı Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

Tikmədaşlı Xəstə Qasımın Güney Azərbaycanda aşıq sənətinin formalaşmasında, inkişafında xüsusi yeri olub. Xəstə Qasım 1684-cü ildə Şərqi Azərbaycanın Tikmədaş kəndində doğulmuş şair, filosof, aşıqdır. XVIII əsrdə yazıb yaradan sənətkar barədə günümüzə maraqlı əhvalatlar, onun şeirləri gəlib çatıb. Yazılı mənbələrdə qeyd edilir ki, rəvayətlərə görə, Xəstə Qasım XVIII əsrdə Tehran-Təbriz yolunun kənarında Qarqalan dağının ətəyində yerləşən Tikmədaş kəndində dünyaya gəlib. Doğma kəndində molla məktəbini başa vurandan sonra dövrünün elm mərkəzlərindən olan Ərdəbildə təhsil alıb, Şeyx Səfi mədrəsəsində yaradıcılığa da elə o illərdə başlayıb. "Xəstə Qasımın Ərdəbil səfəri" dastanına görə, müəllimi ona nə qədər dərs öyrətsə də, Qasım başa düşmür, axırda müəllimi onun məktəbdən çıxaracağı ilə hədələyir. Qasımın əli hər yerdən üzülür. O gecə yuxuda Həzrəti Əlini görüb ondan badə alır, bir gecənin içində təriqətin ən yüksək qatlarına çatır.

Xəstə Qasım sonralar 14 il müddətində Qum və Nəcəf şəhərlərində dini təhsil alır. Ömrünün 20 ildən çoxunu elmləri öyrənməyə sərf edir.

Şeirlərindən bəlli olduğu kimi, Xəstə Qasım Qurani-Kərimi əzbərdən bilməklə yanaşı, müqəddəs kitabı avazla oxuyar, eyni zamanda mahir xəttat olduğuna görə öz xətti ilə Quranın və başqa qiymətli kitabların üzünü köçürərmiş.

"Xəstə Qasım", "Biçarə Qasım", "Molla Qasım" təxəllüsləri ilə şeirlər yazan aşığın "Xəstə" təxəllüsünü götürməsi ilə bağlı da müxtəlif fikirlər söylənməkdədir. Bu fikirlər arasında haqq aşığının özünü eşq xəstəsi adlandırması gümanı da var. Çünki Xəstə Qasım gənc yaşlarından təsəvvüf dairəsinə daxil olmuş, ali həqiqət axtarışına çıxmışdır.

Xəstə Qasımın yaradıcılığı çoxşaxəliliyi ilə seçilir. O, klassik şeir janrlarında - qəzəl, qəsidə, məsnəvi yazmaqla yanaşı, ilk dəfə aşıq ədəbiyyatında "döşləmə" şeir növünün əsasını qoymuş, qoşma-müstəzad, aşıq yaradıcılığında bugünədək məlum olan ilk dodaqdəyməz nümunəsini də elə o yaratmışdır.

Bunlardan əlavə, Xəstə Qasım həm də "əvvəl-axır" deyilən şeir-sənət nümunəsini ilk dəfə bir gəraylısında işlətmişdir.

Ay ariflər, bir tərlanım uçubdur,
Sağ əlimdən sol əlimə alınca.
Onu tutan xeyrü-bəhrin görməsin,
Mən yazığın naləsi var dalınca.

Ancaq aşıq ədəbiyyatında Xəstə Qasım daha çox öz ustadnamələri ilə məşhurdur.

Ömrünün çoxunu qürbətdə keçirdiyindən Xəstə Qasımın yaradıcılığında Vətən həsrətli şeirlərinin də xüsusi yeri var.

Xəstə Qasımın adı ilə bağlı "Xəstə Qasımın Dərbənd səfəri", "Xəstə Qasımın Urmiyə səfəri", "Xəstə Qasımın Dağıstan səfəri" dastanları günümüzə qədər gəlib çatmasa da, "Əliyar və Məsum", "Camal ilə Abdulla" (Azərbaycanda yayılmış "Cahan ilə Abdulla"), "Xəstə Qasım və Mələksima" dastanlarının onun tərəfindən yaradıldığı söylənilir.

Bunlar ustad aşıq haqda alimlərin araşdırmalarındandır.

Güney Azərbaycanda aşıq sənəti ən çox XX əsrdə basqılara məruz qalıb, dilimizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla yanaşı sazımızın da susdurulmasına çalışılıb. Amma adı bəlli ustadların, başlıcası isə xalqımızın iradəsi qarşısında qadağalar ləğv olunub.

Urmiyalı aşıq Dərvişi də xatırlamaq yerinə düşərdi. Uzun illər ifasını radio dalğalarında eşitdiyimiz ustad aşıq Güney Azərbaycan aşıq sənətinin dayaqlarından olub. Güney Azərbaycan aşıq mühitinin çox görkəmli simalarından biri sayılan ustad Dərviş Vahabzadənin xatirəsinə aşıq festivalları tədbirləri düzənlənir.

1930-cu ildə Urmiyədə dünyaya gələn Dərviş Vahabzadə o dönəmin ustad aşıqları Həsən xan Çoban və Fərhad Səlimidən dərs alıb.

Yazılanlara görə, Aşıq Dərvişinin Urmiyə Radiosu ilə canlı çıxışları o günlərdə radionun ən çox dinlənən proqramı olub.

Məşhur aşıq 1993-cü ilin avqustunda vəfat edib, doğma elində dəfn olunub.

Güney Azərbaycan aşıqlarından danışarkən ustad aşıq Dehqanı da yada salmalıyıq. Onun ifasında indiyə qədər saysız klassik saz havaları dinləmişik.

Güney Azərbaycanda aşıq sənətinin tarixi çox qədimdir. Güneyimizin aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Dirli Qurbani (güney-qüzey), Miskin Abdal, Dollu Məhəmməd, Balovlu Miskin, Aşıq Cavad, Aşıq Dehqan, aşıq Dərviş kimi neçə-neçə ozanları, aşıqları olub. Hələ biz Güneydən Qüzeyə gəlib uzun illər burada aşıqlıqla məşğul olan ustad aşıq Hüseyn Cavanı demirik. O Hüseyn Cavan ki, aşıq sənətinin görkəmli nümayəndələrindən biri olub, Cənub sevdalı ifalar edib.

Bu gün güneydə onlarla saz ocaqları var və ustad aşıqlar gənc nəsilə aşıq sənətinin sirrlərini öyrədir.

Güneyin ustad aşıqlarından biri olan aşıq Çingiz Biriyanın koronavirus səbəbindən vəfatı o taylı, bu taylı aşıq sənətinə həqiqətən də zərbə oldu. Amma onun sənətini davam etdirən onlarla aşıq var.

Bu gün aşıq Sədaqət Gənceyi, aşıq Çingiz Mehdipur, aşıq Məhbub Xəlili, aşıq Səlcuq Şahbazi, Cavad Məhərrəmi, Muxtar Qayabaşı, adını qeyd etmədiyimiz daha neçə-neçə sənətkarlar bu sənəti Güney Azərbaycanda yaşadırlar...Onu da vurğulayaq ki, Güney Azərbaycan aşıqları tez-tez Şimali Azərbaycana da gəlirlər, burada keçirilən tədbirlərdə, festivallarda, konsertlərdə çıxış edirlər. Bu dəvətlər də əsasən Mədəniyyət Nazirliyinin xətti ilə baş tutur.

Müasir dövrdə Güneydə aşıq sənəti özünün yüksəliş dövrünü yaşayır və milli kimlik pasportumuz olan sazımızı yaşadırlar...

***İradə SARIYEVA***